

# O kitab mənə uğur gətirdi

■ **Kənan Hacı**

*“Kaspi” qəzeti ”Yazarın ilk kitabı” adlı yeni layihəyə start verib. Layihənin məqsədi yazıçıların ilk kitabı haqqında, onun çapı barədə xatirələrini danışması, hələ kitabları nəşr edilməyən yazarlarla təcrübələrini bölüşmələridir. Layihənin bu dəfəki qonağı yazıçı Kənan Hacıdır. Onun ilk kitabı ”Özündən qaçmaq olmur” (2009)*

**- İlk kitabınızın çap olunması ideyası haradan qaynaqlandı?**

- Mən yaşıdlarım arasında ilk kitabı ən gec çıxanlardanam. 2005-ci ildə şeirlər kitabımı nəşr etdirmək istədim, hətta tənqidçi Əsəd Cahangir kitaba geniş bir ön söz də yazdı. Müəyyən səbəblərdən o kitab nəşr olunmadı. Əsəd Cahangirin yazısı sonralar ”Azərbaycan” jurnalında və bir neçə qəzetdə çap olundu. Kitab isə hələ də çıxmamışdı. 2008-ci ildə mən şeirlərimin bir qismini ”Retro yuxular” adıyla xüsusi buraxılış formasında nəşr etdirdim. Vaqif Yusiflinin, Əsəd Cahangirin mənim haqqımda yazdığı yazılar da o buraxılışda yer aldı. Amma təbii ki, bu, kitab deyildi. İlk kitabım 2009-cu ildə, 33 yaşımda çıxdı. Kitabı ”Qanun” nəşriyyatı çap etdi. Əsəd bəyin yazısında belə bir yer vardı ki, ”neyləsən də özündən qaça bilməzsən”. Sonra mən ona ”Özündən qaçmaq olmur” adlı bir şeir yazdım və həmin şeiri kitaba da daxil etdim. Kitab nəşrə hazırlananda həyat yoldaşım İlhamə xanım nəşrə bu adı təklif etdi və beləcə, kitab ”Özündən qaçmaq olmur” adıyla nəşr edildi.

**- Kitabın çap olunması zamanı hansı çətinliklərlə üzləşdiniz?**

- Xatırlayıram, biz bir neçə nəşriyyata müraciət etdik, amma qiymətlər çox baha idi. Lap axırda ”Qanun” nəşriyyatına üz tutduq və Şahbaz bəy münasib qiymətə kitabın çapını öz üzərinə götürdü. Başqa heç bir çətinlik olmadı. Yeri gəlmişkən, ”Qanun” nəşriyyatı sonralar ”Ən yeni ədəbiyyat” seriyasından mənim iki kitabımı da öz hesabına çap etdi.




**- Kitabın üz qabığı, tərtibat işlərində çətinliyiniz oldumu?**

- Üz qabığının hazırlanmasında nəşriyyatla birlikdə çalışdıq və kitabın adına uyğun şəkil tapdıq. Tərtibat işləriylə də nəşriyyat özü məşğul oldu.

**- İlk kitabınızın oxucu auditoriyası barədə nə deyə bilərsiz?**

- İlk kitabım çıxanda çox sevinmişdim. İndi də o sevinc hissini xatırlayıram. O vaxt hələ kitab satışı indiki kimi intensiv deyildi, şəhərdə bir-iki kitab mağazası vardı. Kitabımın çoxunu dost-tanışa hədiyyə verdim. Xaricdə yaşayan dostlardan da kitab sifariş etmişdilər, onlara kitabımdan yolladım. Qalanını da mağazalara verdim. İndi çoxları məndən o kitabı istəyir, təəssüf ki, özüm üçün bir nüsxə güclə saxlaya bilmişəm. O kitab mənə uğur gətirdi. Həmin kitaba görə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ”İlin yeni nəsil yazarı” mükafatını aldım. Bir ildən sonra ikinci kitabım çıxdı.

**- İlk kitabının çapı hazırlığında olanlara məsləhətiniz nədir?**

- Kitab nəşr etdirməyə tələsməsinlər. Bu günün tanınmış yazarlarları olan dostlarımızın bəziləri ilk kitabından imtina edib. İlk qələm təcrübələrini tez-tələsik kitaba çevirmək sonradan peşəkarlaşmış yazarlara utanc hissi gətirir, ona görə də həmin kitabları hamıdan gizlətməyə çalışırlar. Məncə, axtarışlar dövrü bitəndən, özünü tapandan sonra yazdıqlarına yenidən nəzər salmaq və bundan sonra seçim etmək lazımdır.

**Hazırladı:**
**Xatirə Nurgül**

Kaspi.-2017.-29-31 iyul.-S.18.